Seçilənlər

# Möhlət Müslümov olmağın sirri

## "Qarabağ, Səxavət Məmmədov olmasaydı, mən Möhlət Müslümov ola bilməzdim"

*Sənəti zirvəyə çatdıranlar da və onu ilahiləşdirənlər də elə sənətkarların özləridir. O adama sənətkar deyilir ki, seçdiyi sənətinin sənətkarı olur. Yəni korifey sənətçilərin içərisində özünə yer tapa bilir. Xalq artisti, tanınmış tarzən Möhlət Müslümov belə sənətçilərimizdəndir. Özünəməxsus ifa tərzi ilə seçilən Möhlət müəllim Əhsən Dadaşov, Həbib Bayramov, Əhməd Bakıxanov kimi sənətkarlarla çiyin-çiyinə işləyib və bugünün özündə də onları özünə ustad sayır. Beləliklə "Seçilənlər" rubrikasının budəfəki qonağı Azərbaycan Dövlət Televiziya və Radiosunun nəzdində fəaliyyət göstərən Əhməd Bakıxanov adına Xalq Çalğı Alətləri Ansamblının bədii rəhbəri, xalq artisti, professor, prezident təqaüdçüsü Möhlət Müslümovdur.*


Foto: "HƏFTƏ İÇİ"

Kasıb bir komada, fəhlə ailəsində dünyaya göz açan Möhlət Müslümov hələ 2 yaşında ikən sənətə meyilliliyi ilə diqqəti cəlb edib. Valideynləri onun qeyri-adi uşaq olduğunu görüb musiqiyə yönləndirirlər: "Valideynlərimin də musiqiyə həvəsi olub. Amma atamın imkanı olmayıb tar almağa. 5 yaşımda atam mənə nağara aldı. Nağarada çalıb öyrənməyə başlasam da, tarın həvəsi məni rahat buraxmırdı. Anam çox savadlı idi, bütün qəzetləri oxuyardı. Əruz vəznini çox mükəmməl bildiyindən mənə klassik şairlərimizin qəzəllərini öyrədərdi. 10 yaşımda Bakı şəhər 18 saylı uşaq musiqi məktəbinin tar sinfinə getdim və 5 il orada təhsil aldım. Müəllimim Nadir Heseynovdan tarı tutmağı, ifa etməyi öyrəndim..."

### "Aşıq olmadı, sazı götürüb "Dilqəmi" çaldım"

Möhlət Müslümov Asəf Zeynallı adına Musiqi Məktəbində Əhməd Bakıxanov, Adil Gəraylı, professor Məmmədağa Kərimov kimi korifey sənətkarlardan tarın sirlərini öyrənir. Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının xalq çalğı alətləri fakültəsini bitirdikdən sonra təyinatla Xaçmazdakı musiqi məktəbində müəllimliyə başlayır. 1975- ci ildə Səid Rüstəmov adına Xalq Çalğı Alətləri Orkestrində bir il fəaliyyət göstərən Möhlət Müslümov sonra Asəf Zeynallı adına Musiqi Məktəbində müəllim işləyir. 1988-ci ildə Konservatoriyanın nəzdində muğam sinfi açılır və xalq artisti, professor Süleyman Ələsgərov onu həmin sinfə muğam müəllimi təyin edir. 2000-ci ildən Milli Konservatoriyanın müəllimidir.

"Bu günə kimi məni qarabağlı kimi tanıyırlar. Elə ifamda da Qarabağ ruhu, Qarabağın ab-havasının duyulması səbəbsiz deyil. Vallah Qarabağ, Səxavət Məmmədov olmasaydı, mən Möhlət Müslümov ola bilməzdim. Əgər sənət aləmində məni bakılı, şirvanlı, şəkili kimi tanıyırlarsa, bu mənim sənətimə verilən qiymətdir. Televiziya verilişlərinin birində keçirilən tədbirdə aşıq olmadığından sazı götürüb "Dilqəmi" havasını çaldım. Sonra Qazax və Tovuz bölgəsindən mənə zənglər gəldi, dedilər ki, ə, qağa görünür, sənin də qanında qazaxlı, ya tovuzlu qarışığı var. Təvazökarlıq olmasın, tarı sinəmə basıb seygah çalanda özümdə olmuram, başqa aləmdə olub sanki ruhumla danışıram", - deyir Möhlət Müslümov .

Müsahibimiz keçmişini - uşaqlıq illərini, quzu otardığı günləri, atalı-analı illərini xatırlayır. "Mənim gəncliyim, görüb-götürdüyüm illər Qarabağ, Ağdam toylarına düşür. Heyf Ağdamdan, təkcə musiqi beşiyimiz yox, həm də qeyrət qalamız idi", - deyir.

### Ağdam azad olunsa...

Möhlət Müslümov keçmişdən danışdıqca yanağından süzülüb axan göz yaşlarını gizlədə bilmir. Təxminən 10 il əvvəl Asəf Zeynallı adına musiqi məktəbində müəllim işlədiyi dövrdə şahidi olduğu bir hadisədən danışır: "Ağdamdan məcburi köçkün, 70 yaşlı bir qadının nəvəsi tar şöbəsinin birinci kursunda təhsil alırdı. Nənə şöbə müdirinə dedi ki, nəvəsi Şölət müəllimin sinfində dərs almalıdır. O vaxt qəbul çox çətin idi. Mənim sinfimdə artıq boş yer yox idi. Şöbə müdiri mənim dilimdən dedi ki, sinfimdə yer yoxdur. Qadın ərköyüncəsinə "Möhlət müəllim qələt eyləyir, o bunu deməz, mənin öz ağdamlımdır" deyəndə çox kövrəldim və gözlərimin önündən o müqəddəs torpaqlar gəlib keçdi. O yaşlı qadın məni ağdamlı kimi bilirdi. 4 il həmin uşağa dərs dedim, amma ağdamlı olmadığımı bildirmədim..."

Müsahibim uşaqlıq dostu olan ölməz sənətkarımız Səxavət Məmmədovdan, A.Zeynallı adına musiqi məktəbində birgə təhsil aldığı illərdən, ailəvi dostuqlarından ürək dolusu ilə danışır: "Güləblıda çox günlərimiz olub. Əgər Ağdam qayıdarsa Güləblıya gedib 7 əsas muğamı orda çalacağam. Qarabağda, Ağdamda tarı qoruyub saxlayan Məşədi Nəriman kimi böyük şəxsiyyətlər olub. O, gözəl tar ifaçısı, muğam bilicisi olub. Ustad sənətkarlarımız Ramiz Quliyev və Rəmişə tarı tutmağı öyrədib".

### "AzTV"nin menyusuna

Tarzən onu da deyir ki, 1987- ci ildə Həbib Bayramov onu Əhməd Bakıxanov adına Xalq Çalğı Alətləri Ansamblına solist kimi dəvət edib. 1994- cü ildə Həbib Bayramov dünyasını dəyişdikdən sonra ansambla bədii rəhbər təyin olunan Möhlət müəllim hazırda bu vəzifəni icra etdiyini söyləyir. Onun sözlərinə görə, ansambl Dövlət Televiziyasının nəzdində fəaliyyət göstərməsinə baxmayaraq, hələ də məşq otağı yoxdur. Üstəlik maliyyəsi olmadığından ansamblın üzvləri əməkhaqqı almır: "Əhməd Bakıxanov və Həbib Bayramovun ruhu dolaşan bu ansamblı öz gücümüzlə yaşadırıq. 1929-cu ildə "solistlər" ansanblı kimi fəaliyyət göstərib. 1931-ci ildən bu günə kimi Ü.Hacıbəyovun və M.Maqomayevin təşəbbüsü ilə bugünə kimi Xalq Çalğı Alətləri Ansamblı kimi fəaliyyətini davam etdirir. Tanınmış əksər xanəndələr, klassik sənətkarlar, muğam ustadları vaxtilə məhz bu ansamblda yetişib, püxtələşiblər. Bütün sənətçilərin bu ansamblla birgə ifaları "Qızıl Fond"da saxlanılır. Amma ansamblımız hələ də efirdə canlı çıxış etmir. Səbəb odur ki, artıq bizi dəvət etmirlər. Hər yetən bir ansambl, üçlük yaradıb, yerindən duran muğam çalır. Bununla da süni muğam ifaçısı stimulu yaradıblar. Amma muğamı tam ifa edə bilmirlər".

### Muğam ifaçısı olmaq üçün 7 şərt

Xalq artisti ən çox iradını gənc ifaçılara tutur. Deyir ki, onların üçlük yaradıb ekrana çıxmağa haqqı yoxdur: "Əvvəlcə onlar yetişməli və bu sənətə mükəmməl yiyələnməlidirlər. Buna nail olmaq üçün əvvəla gəlib Ağasəlim Abdullayev kimi ustad sənətkardan öyrənsinlər, bizim sənət təcrübəmiz və məktəbimiz olan bu ansamblda çıxış edib öyrənsinlər. Adam özünü o vaxt muğam ifaçısı adlandırar ki, heç olmasa 7 əsas muğamı ifa edə bilsin. 2-3 muğamı çalıb-oxuyana muğam ifaçısı deyə bilmərəm. Gənc ifaçıların bədbəxtliyi ondadır ki, bir balaca tanınan kimi özlərinə arxayın olurlar".

Söhbətimizin sonunda Möhlət Müslümov xarici səfərlərdən birində başına gələn əhvalatlardan biri haqqında danışır. Deyir ki, 1988-ci ildə Hindistanın Çinlə sərhədində yerləşən Tribandrom şəhərində konsert verərkən hər gün yağış yağır, hava çox isti olurdu. Açıq səhnədə Səxavət Məmmədov, Fəxrəddin Dadaşov və müsahibimiz üçlükdə çıxış etməliymiş. Günəşli, isti havada açıq səhnədə çıxış zamanı qəfildən leysan başlayır: "Kamança ilə tar elə incə alətdir ki, bir balaca su dəyən kimi səs çıxmır. Camaat heyrət içindəydi. Amma biz yağışı unudub çox çətinliklə də olsa, bu ifanın öhdəsindən gələ bildik".

*Qələndər Xaçınçaylı*